

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 89 (23.731)

*19 may 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Belarus Respublikasının Müdafiə naziri Viktor Xrenini qəbul edib.

Dövlətimizin başçısı Prezident Aleksandr Qriqoryeviç Lukaşenkonun Azərbaycana bu yaxınlardakı səfəri zamanı ikitərəfli münasibətlərin geniş gündəliyinə dair danışıqlar aparıldığını, o cümlədən ölkələrimiz arasında artıq qədim tarixə malik olan hərbi-texniki əməkdaşlıq məsələlərinin müzakirə edildiyini xatırladıb, bütün istiqamətlərdə əməkdaşlığı davam etdirmək əzmində olduqlarını bildirib. Ona görə ki, bu gün Belarus və Azərbaycan qarşılıqlı fəaliyyətin, əməkdaşlığın yüksək səviyyəsini nümayiş etdirir.

Ölkəmizin başçısı Belarus şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasında iştiraka dəvət olunduğunu, bütün başqa istiqamətlər üzrə də bundan sonra fəal əməkdaşlıq ediləcəyini diqqətə çatdırıb. Vurğulanıb ki, ölkələrimiz arasında hərbi, hərbi-texniki sahədə əməkdaşlıq qədim tarixə malikdir və çox yaxşı nəticələr verir.

Belarusun Müdafiə naziri Viktor Xrenin minnətdarlıq edərək bildirib ki, Azərbaycan Belarusun şəxsində Mərkəzi Avropada özünə etibarlı dayaq, Belarus isə Azərbaycanın şəxsində Qafqazda etibarlı dost tapıb. Azərbaycan Belarusun ənənəvi dostu və müttəfiqidir, həm regional, həm də beynəlxalq siyasi aləmdə həmişə mühüm rol oynayıb.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Mayın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qros ilə görüşmüşdür.

Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Fransa Respublikası arasında elm, təhsil və iqtisadi-ticarət sahəsindəki əlaqələri diqqətə çatdırmışdır. Muxtar respublikanın 23 məktəbində fransız dilinin tədris olunduğunu bildirən Ali Məclisin Sədri Azərbaycan-Fransa beynəlxalq ekspedisiyası tərəfindən Naxçıvanda aparılan tədqiqatlardan bəhs etmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Vətəni Naxçıvana səfərindən məmnunluğunu bildirən Zakari Qros səmimi qəbula görə minnətdarlıq etmişdir. Səfir ölkələrimiz arasındakı münasibətlərin uzaq keçmişə dayandığını bildirmiş, Fransanın Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə əlaqələrinin əhəmiyyətini vurğulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bir sıra qərarlar qəbul etmişdir. Belə ki, Nazirlər Kabinetinin 2021-ci il 3 may tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin 2021-ci il 3 may tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası" təsdiq edilmişdir. Müvafiq qaydaya görə dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qiymətləndirilmə forması əsasında aparılır.

Nazirlər Kabinetinin 2021-ci il 4 may tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasının respublika və yerli əhəmiyyətli avtomobil yollarının siyahıları" təsdiq edilmiş və "Naxçıvan Muxtar Respublikasında peşə-ixtisas təhsili üzrə ixtisasların və tədris planlarının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 25 avqust tarixli 83 nömrəli Qərarında dəyişiklik edilərək yeni peşə ixtisasları yaradılmış, tədris müddətləri müəyyən edilmişdir.

Eləcə də Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 8 may tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydaları"nda, "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə"də, "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili, şəhərlərarası və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası"nda, "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda dəyişikliklər edilmişdir.

Bundan başqa, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin həmin tarixli digər qərarları ilə "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"ndə, eləcə də "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nda və "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"da dəyişikliklər edilmişdir. Sonuncu qaydalarda edilmiş dəyişikliyə əsasən uçuşdan əvvəl 48 saat ərzində koronavirusa dair PCR testindən keçən, nəticələri neqativ olan sərnişinlər reysə qəbul edilir. Həmçinin sərhəd nəzarətindən keçərkən test nəticələri pozitiv olarsa, həmin vətəndaş iki həftə müddətinə karantinə alınır, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər isə muxtar respublika ərazisinə buraxılmır və aviadaşıyıcının hesabına həmin reyslə geri qaytarılır. Aviaşirkətlərin bütün reyslərində əl yükünün daşınmasına icazə verilmir. Aviaşirkətin qaydalarına əsasən qadın əl çantası, gül dəstəsi, çətir, qəzet, jurnal və digər materialların daşınmasına icazə verilir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Növbəti attestasiya imtahanları başlayıb

Musiqi təhsili müəssisələrində çalışan müəllimlərin attestasiyası müəllimlərin bilik və bacarıq səviyyəsinin müəyyənləşdirilib üzə çıxarılması, qiymətləndirilmə aparılan müəllimlərin müvafiq dərs yükü normasının optimallaşdırılmasının təmin edilməsi məqsədilə aparılır.

İmtahanlar test üsulu və müsahibə vasitəsi ilə iki mərhələdə həyata keçirilir. Orta ixtisas musiqi təhsili müəssisələri üçün test imtahanı zamanı iştirakçılara 120 dəqiqə vaxt ərzində, ümumilikdə, 80 olmaqla, müəssisələrdə tədris olunan ixtisaslar üzrə 70, informasiya və kommunikasiya texnologiyaları üzrə 10 test tapşırığı verilir.

Uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üçün test imtahanı zamanı iştirakçılara müəssisələrdə tədris olunan ixtisaslar üzrə 50 test tapşırığı təqdim olunur və bu tapşırıqların yerinə yetirilməsi üçün 75 dəqiqə vaxt ayrılır. Hər iki halda hər bir düzgün cavab 1 balla qiymətləndirilir. Birinci mərhələdə müvəffəqiyyət qazanmış iştirakçılar müsahibə mərhələsində iştirak etmək hüququ əldə edəcəklər. Müsahibə zamanı müəllimin praktik hazırlığı, peşəkarlıq və ifaçılıq qabiliyyəti yoxlanılacaq.

Müəllimlər arasında dərs yükünün bölüşdürülməsi və onların karyera inkişafı zamanı qiymətləndirilmənin nəticələri nəzərə alınacaq. Bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlər iş yerini dəyişərlərsə, həmin müəllimlərdən təkrar olaraq qiymətləndirilmədə iştirak etmək tələb olunmur.Təkrar qiymətləndirmədə iştirak etməyən və keçid balını toplaya bilməyən müəllimlər qiymətləndirmədən keçməmiş hesab olunacaq və həmin müəllimlərlə bağlanmış əmək müqaviləsinə xitam veriləcək.

**Xəbərlər şöbəsi**

## Torpaqların su təminatı yaxşılaşdırılır

Muxtar respublikada suvarma mövsümünün mütəşəkkil keçirilməsi diqqətdə saxlanılır. Aprel ayında su istifadəçilərinə 24,8 milyon kubmetr su verilmiş, bunun müqabilində 20 min 790 hektar torpaq sahəsi suvarılmışdır. Bu dövrdə 13,9 kilometr beton və torpaq kanal, 26,5 kilometr ara arxlar, 4,6 kilometr kollektor lildən təmizlənmiş, 19,7 kilometr yeni suvarma boru xətti çəkilmiş, 6,3 kilometr içməli su xətti, 5,8 kilometr suvarma boru xətti, 6,5 kilometr təzyiqli boru xətti və 3,7 kilometr açıq drenaj xətti təmir edilmişdir. Yaşayış məntəqələrini və əkin sahələrini daşqın və sel sularından qorumaq məqsədilə çay və selovlarda 600 metr istiqamətləndirici bənd tikilmişdir.

Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 339 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 10,9 kilometr suvarma xətti çəkilmiş, 32 hovuz və hidrant quraşdırılmışdır. Şərur, Babək və Sədərək rayonlarında, ümumilikdə, 79,5 hektar sahədə qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Ötən ay muxtar respublikada 69 subartezian quyusu təmir olunmuş, 5 kəhrizdə bərpa işləri davam etdirilmiş, 1 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmışdır. Şahbuz rayonunun Külüs kəndində içməli suya olan tələbatı yaxşılaşdırmaq məqsədilə 1 subartezian quyusu qazılmış, Babək rayonunun ərazisində Uzunoba gölünün yaxınlığında olan təpədə yeni salınmış meyvə bağını suvarma suyu ilə təmin etmək məqsədilə 1 subartezian quyusu istifadəyə verilmişdir.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Kəngərli rayonunun Qarabağlar və Yurdçu kəndlərində 660 metr içməli su xətti çəkilmişdir. Sədərək rayonunda 275 ev içməli su xəttinə, 420 ev isə kanalizasiya xəttinə birləşdirilmiş, bundan əlavə, Sədərək rayonunun Dəmirçi kəndinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə tikinti işləri davam etdirilmiş, 607 ev birləşməsi xətti çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

# Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının konfransı keçirilib

***Mayın 18-də Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının konfransı keçirilmişdir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli konfransın gündəliyində duran məsələlər barədə məlumat vermişdir. Bildirilmişdir ki, konfransın gedişi zamanı əvvəlcə Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının 5 illik fəaliyyətinə dair hesabatı dinləniləcək, daha sonra təşkilatın yeni İdarə Heyətinin üzvləri və təşkilatın sədri seçiləcək, Nəzarət-Təftiş Komissiyasının tərkibi müəyyənləşəcəkdir.

Konfransın gündəliyi qəbul olunmuşdur.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidovun hesabatı dinlənilmişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə 2006-cı ildən fəaliyyətə başlayan Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı öz sıralarını ötən beş ildə daha da genişləndirmişdir. Hazırda 429 şəhid ailəsi, 374 nəfər müharibədə sağlamlığını itirmiş şəxs, 3279 müharibə veteranı təşkilatın üzvüdür. Muxtar respublikada müharibə veteranları və şəhid ailələrinin sosial vəziyyətinin və mənzil-məişət şəraitinin yaxşılaşdırılması, minik avtomobillərinin verilməsi, onların tibbi və sosial bərpası daim diqqət mərkəzində saxlanılır. Belə ki, müharibə veteranlarının minik avtomobili ilə təmin edilməsi istiqamətində işlər davam etdirilmiş, veteranlara və şəhid ailələrinə hesabat dövrü ərzində 62 minik avtomobili verilmişdir. Həmçinin Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında şəhid ailələri və hərbi xidmət zamanı sağlamlığını qismən itirmiş vətəndaşlara 37 mənzil və fərdi yaşayış evi verilmişdir. Məcid Seyidov göstərilən diqqət və qayğıya görə Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının üzvləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.



Hesabat məruzəsindən sonra İdarə Heyətinin yeni tərkibi seçilmişdir.

İdarə Heyətinin üzvləri Raqib Baxşıyev və Novruz Rəhimov çıxış edərək Seyidov Məcid Mirəli oğlunun Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri vəzifəsinə namizədliyini irəli sürmüşlər.

Təklif səsə qoyularaq qəbul olunmuş və Məcid Seyidov Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri seçilmişdir.

Məcid Seyidov minnətdarlıq edərək göstərilən etimadı doğrultmaq üçün səylə çalışacağını bildirmişdir.

Daha sonra Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Nəzarət-Təftiş Komissiyasının tərkibi seçilmiş, konfransın qərarı qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli konfransda çıxış edərək demişdir ki, Azərbaycanda Vətən müharibəsi zamanı sağlamlıq imkanlarını itirən şəxslərə və şəhid ailələrinə dövlət qayğısının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Hazırda bu siyasət ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Azərbaycan Ordusunun Vətən müharibəsində torpaqlarımızı erməni işğalçılarından azad etməsi və tarixi qələbə qazanması da bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada da Azərbaycan Vətən müharibəsi veteranları və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Müharibə veteranları və şəhid ailələri minik avtomobilləri, fərdi ev və mənzillərlə təmin olunur, onların müxtəlif sanatoriyalarda müalicələri təşkil edilir. Muxtar respublikada Vətən müharibəsi şəhidlərinə də böyük ehtiram göstərilmiş, şəhid ailələri hərtərəfli qayğı ilə əhatə olunmuşlar.

Ülvi Hüseynli bildirmişdir ki, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı gələcək fəaliyyətini Ali Məclis Sədrinin tapşırıqlarının icrası istiqamətində qurmalıdır.

**"Şərq qapısı"**



# Rekordsmen diyarım

Tarixin ta o üzündən boylanan diyarım Naxçıvan... Zamanın müxtəlif dövrlərinin müxtəlif keşməkeşləri ilə qarşılaşan, hər dəfə də dözümü, mətinliyi ilə başını dik tutan, əyilməyən, sarsılmayan yurdum... Tarix əsrlərdir, səni sonsuz sayda səhifəyə çevirib vərəqləyir, zaman səni ən maraqlı kitab kimi oxuyur. Hələ də blokadadasan, mənim gözəl Naxçıvanım. Düz 30 ildir, tarix zamanın blokada Naxçıvanını sinəsinə alıb. Onu anası Azərbaycana aparan yolları qapayıb. Bu, səninçün bir sınaqdır, diyarım. Bu sınaqdan da üzüağ çıxmısan, şükürlər olsun. Sən elə bir tarixi dövr keçirsən ki, bu, bütün dünya tarixində bir ilkdir. Sən illər sonra dünya tədqiqatçılarının mövzusuna çevriləcəksən. Blokada və inkişaf... Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin mayın 10-da qalib ölkənin Prezidenti kimi Naxçıvana ilk səfəri zamanı bu inkişafı təsdiqləyən dəyərli fikirləri: ***"Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb".*** Bu, tarixin hansı dönəmində görünüb? Hansı diyar əli anasının əlindən kənarda ayaqları üzərində dura bilib? Hələ, üstəlik, gözəlliklər məkanına çevrilib? Hansı diyar çıraq işığının qaranlığını əlləriylə boğub özünü nura boyayıb? Hansı diyar səninətək 30 ilin əvvəlindəki aclıqdan, səfalətdən ixracatçıya çevrilib? Hansı diyardır ki, öz əlləriylə ağacları kəsib sobada yandırıb, övladlarını ölümdən xilas edib və bir neçə il sonra həmin övladların əlləriylə diyarını yaşıllıqlar məskəninə çevirib? Hansı diyardır, söylə? Hansı diyardır, insanları çörək növbələrindən əliboş qayıdıb, aclığını kimsəyə bildirmədən bu günün ümidini açılacaq digər bir səhərə bağlayıb? Hansı diyar blokadanın ilk illərində Azərbaycanın ayrı-ayrı bölgələrində qohum-qardaşının toyunda, büsatında, hüznündə iştirak etməkdən məhrum olub, dərd-sərini köksünə sıxıb dayana bilib? Hansı diyardır, sən söylə, yenə o acınacaqlı illərdə bütün evlərinin başıpapaqlısı bir tikə çörək üçün qonşu ölkələrə yollanan, balalarının gözlərini yollarda qoyan və buna tab gətirən? Hansı diyarda olub qardaşın bacısının toyunda iştirak etməməsi, atlanıb gəlin köçən qızın əllərinə xına yaxılan an elektrikin kəsilərək ətrafın qaranlığa bürünməsi, valideynin xəstə uşağına xəstəxanada isti bir otaq, dava-dərman tapa bilməməsi, ana-atanın övladının bir şirniyyat istəyini ödəyə bilməməsi, çırağın nefti bitər deyə, insanın gecə kitab oxumağa həsrət qalması, aylarla bir tikə qəndə həsrət qalıb ərik, iydə qurusu ilə çay içməsi, soyuq evlərdə donan əllərini nəfəsi ilə qızdırması və ən acınacaqlısı isə çətinliklər məngənəsində əllərin illərlə qoyunlardan çıxmaması... Söylə, olubmu bunların hamısı bir arada haradasa? Yox, olmayıb. Hansısa bir ölkənin diyarı səninətək çətinliklərə məruz qalmayıb.

Bəs bütün bunlarla başlayan 30 ildə daha nələr baş verib? Bütün bunlar göz qarşısındadır. Blokada ilə inkişafın qoşa addımlaması bir möcüzə yaradıb, diyarım, səndə. Kəndlərin, qəsəbələrin, şəhərlərin büsbütün abadlaşdırılıb, qazlaşdırılıb, elektrik enerjisi ilə təmin olunub. Ölkə başçısının söylədiyi kimi: ***"Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir"*** .

Naxçıvan şəhərindən – köksündən şaxələnib Şəruruna, Culfana, Ordubadına, Babəkinə, Sədərəyinə, Şahbuzuna, Kəngərlinə uzanan yollar abadlaşıb, illər öncənin daş-kəsəyin, çala-çuxurun sinəsindən qoparıb atıb. Kəndlərindəki ümumtəhsil məktəblərini qonaqların universitet binalarına oxşadırlar. Ən ucqar kəndində belə, səhiyyə müəssisələri, digər xidmət təşkilatları fəaliyyət göstərir. İnsanlar torpaq sahibinə çevriliblər, əkib-becərir, məhsul əldə edir, təsərrüfatlarını genişləndirir, dolanışıqlarını təmin edirlər. Hələ sovet dönəmindən bəri illərlə əl dəyməyən, ün yetməyən resurslarınla işıqlandın Naxçıvanımız. Torpaqlarımızı bərəkətə gətirdin. Məhsul, elektrik enerjisi ixracatçısına çevirdin bizi. Turistik məkanların sorağını dünyaya yaydı. Ölkə başçısının söylədiyi kimi: ***"Naxçıvanın çox böyük turizm potensialı var. Bu gün yeni uçuş-enmə zolağının açılışını qeyd etdik və biz turistlərin Naxçıvana gəlməsini stimullaşdırmalıyıq. Əlbəttə, pandemiya ilə əlaqədar bütövlükdə turizm sektoru tənəzzülə uğrayıb. Amma əminəm ki, pandemiyadan sonra Naxçıvana gəlmək istəyən xarici qonaqların sayı daha da artacaq".***

İlbəil tikilənlər-yaradılanlar insan amilinə xidmət etdikcə firavan həyatımız blokadanın acılı günlərini, sadəcə, xatirəyə çevirdi. Milli Ordumuzun təməlini qoydu ulu öndərimiz səninlə. 90-cı illərdə Sədərəyin əliyalın insanlarının, şəhidlərinin, Naxçıvanımızın sərhədlərinin təhlükəli vəziyyəti bu ordunun təməl daşları oldu. Dünənki uşaqlar köksündəki acılı-şirinli günlərin fonunda böyüyüb o qədər vətənpərvər gənc oldular ki, İkinci Qarabağ müharibəsində göstərdikləri rəşadət dillər əzbəri oldu. Ölkə başçısının söylədiyi kimi: ***"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər".*** Digər gənclərin universitetlərdə, dövlət qurumlarında iqtisadi, mədəni, ictimai həyatın ən fəal, nümunəvi fərdlərinə çevriliblər. Tək gənclərimi? Xeyr, yaradılan şərait, dövlət dəstəyi, göstərilən isti münasibət, qayğı burada yaşayan insanların hər birinin həyat amalına çevrilib illərdir. Bu amalla da hər kəs öz sahəsində öz işi ilə məşğuldur. O tərzdə məşğuldurlar ki, o zəhmətin bəhrəsi bu gün muxtar respublikanın inkişaf göstəriciləridir. Birlik harada varsa, dirliyin orada olmasının təsdiqidir. Bir sözlə, əziz diyarım, inkişafın o qədər qürurvericidir ki, bu qürur bütün naxçıvanlıların qəlbində sən boyda məhəbbətə çevrilib, rekordsmen diyarın ilə fəxr etmələrinə səbəb olub. Və hər kəs əmindir ki, bu inkişaf yaxın gələcəkdə daha yüksək səviyyəyə yüksələcəkdir. Ölkə başçısının söylədiyi kimi: ***"Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".***

Blokada Naxçıvanı və rekordsmen bölgə... Maraqlı tarixi fakt deyilmi?..

**Mətanət MƏMMƏDOVA**
***Azərbaycan Respublikasının Əməkdar jurnalisti***

# Gələcək hüquqşünaslar orta ixtisas polis məktəbində oldublar

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında", eləcə də 2019-cu il 3 aprel tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" sərəncamları və onların icrası gənclərin müasir intellektli, layiqli vətəndaş kimi formalaşmasına xidmət edir.



Dünən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Naxçıvan Orta İxtisas Polis Məktəbində gələcək hüquqşünas tələbələrlə keçirilən görüşdən əvvəl çıxış edən nazirliyin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidov bildirib ki, Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası digər hüquq-mühafizə orqanları ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin də hamiliyinə verilib. Həmin sərəncamlardan irəli gələn vəzifələrin icrasına nazirliyin təcrübəli əməkdaşları cəlb edilməklə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin tələbələri ilə artıq bir neçə görüş keçirilib. Görüş zamanı nazirliyin ümumi fəaliyyəti, təyinatı, strukturu və maddi-texniki bazası barədə tələbələrə məlumatlar verilib, ictimai asayişin və ictimai təhlükəsizliyin təmini, yol hərəkətinin təşkili, eləcə də cinayətkarlığa qarşı mübarizə sahəsində daxili işlər orqanlarının fəaliyyəti izah edilib.

Rəşad Seyidov deyib ki, ötən illərdə muxtar respublikada innovasiyaların tətbiqi sahəsində yaradılan şərait gənclərin yeni ideyalarının dəstəklənməsinə və startap layihələrin uğurla həyata keçirilməsinə imkan verir. Bu müstəvidə inzibati və cinayət qanunvericiliyində aşkar oluna biləcək boşluqların aradan qaldırılması istiqamətində yaradıcı düşüncəni əks etdirən təklif-layihələr hazırlayıb nazirliyin ekspert qrupuna təqdim etməyiniz məqsədəmüvafiq olar.

Sonra tələbələr yol verilən istintaq hərəkətlərinin keçirilməsi ilə əlaqədar praktik məşğələlərə cəlb ediliblər.

İstintaq və Təhqiqat Şöbəsinin, xüsusilə mühüm işlər üzrə baş müstəntiqi, polis kapitanı Zaman Novruzi cinayət hadisələri ilə əlaqədar hadisə yerinə baxışın keçirilməsi, maddi sübutların götürülməsi, saxlanılması və digər istintaq hərəkətləri, eləcə də sənədləşmələr barədə slayd formasında nümunələr təqdim etməklə məlumat verib.

Sonra Kriminalistik tədqiqatlar bölməsinin rəisi, polis mayoru Mirhəsən Seyidli ekspert-kriminalistin hadisə yerində iştirakının məqsədi, izlərin müasir texniki üsullarla aşkar edilib götürülməsi, foto və video çəkilişlərin aparılması, eləcə də əl-barmaq izlərinin real şəkildə götürülməsi və kriminalistik texnikanın mahiyyəti barədə tələbələri məlumatlandırıb.

Sonra nazirliyin İstintaq və Təhqiqat Şöbəsinin rəisi, polis polkovniki Hikmət Əliyev tələbələri Daxili İşlər Nazirliyinin arxivində saxlanılan müxtəlif xarakterli cinayət işlərinin materialları ilə tanış edib.

**✍ Muxtar MƏMMƏDOV**

***Azərbaycanın mədəniyyət paytaxtı Şuşada bir neçə gün əvvəl tariximizin yeni səhifələrinə qürur dolu, duyğu dolu anlar qızıl hərflərlə yazıldı. Qarabağın tacı, zəfərimizin rəmzi, yenilməzlik nişanəsi olan Şuşanın Cıdır düzündə Prezident cənab İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Xarıbülbül” musiqi festivalı keçirildi. Bu festival Şuşanın gözəlliyinə daha da gözəllik qatdı, Azərbaycan ruhu qədim şəhərimizi cana gətirdi, ona yenidən nəfəs verdi. İlk dəfə xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayan “Xarıbülbül” beynəlxalq musiqi festivalı sonuncu dəfə 1992-ci ilin may ayında keçirilmişdi. Şuşanın rəmzi sayılan xarıbülbül gülünün adını alan bu festival uzun illərdən sonra 2021-ci il may ayının 12-si və 13-də təşkil edildi.***




# “Naxçıvan” mahnısı mədəniyyətimizin beşiyi Şuşada

Festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi kollektivlərinin çıxışı, eyni zamanda Azərbaycanımızın görkəmli mədəniyyət xadimlərinin, sənətkarlarımızın ifasında səslənən xalq və klassik musiqi nömrələri əsl bayram havası yaşatdı bizlərə. Baxdıqca hüsnünə, gözəlliyinə doyulmayan Cıdır düzündə səslənən “Qarabağ şikəstəsi”, “Bayatı-Şiraz” qəlbimizə fərəh, dinclik gətirdi. Bütün Qarabağ möhtəşəm Azərbaycan muğamına hakim kəsildi. İllərdir, yadelli əlində lal olmuş dağlar-daşlar, yamaclar dilə gəldi, danışdı. Bu yerlərə mədəniyyət, insanlıq yenidən qayıtdı. Konsertdə xalqımızın ümummilli lideri Heydər Əliyevin vaxtilə işğal altında olan ərazilərimiz haqqında fikirlərini dinlədikdə, Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün bərpa olunmasını əks etdirən videoçarxı izlədikdə kövrəldik, fəxr hissləri yaşadıq. Bir daha xalqımızın yetişdirdiyi bu dahi, uzaqgörən şəxsiyyətlərlə qürur duyduq. Bir çoxumuz “kaş, mən də orada olaydım”, – dedik ürəkdən.





Bir də ona görə sevinirdik ki, Qarabağın mədəniyyət səhifəsinə doğma Naxçıvanımızın da adı yazıldı. Naxçıvan Dövlət Filarmoniyasının muğam qrupu möhtəşəmliyi ilə yaddaqalan “Xarıbülbül” musiqi festivalında sözləri Hüseyn Əzimə, musiqisi Məmməd Cavadova məxsus olan “Barı Naxçıvan” mahnısını ifa edərək, bizi bir daha qürurlandırdılar. Şuşa səfərindən yüksək təəssüratlarla qayıdan sənət adamları ilə həmsöhbət olduq, o unudulmaz anları bir də onların özlərindən dinlədik.

Azərbaycan Respublikasının Əməkdar artisti, respublika və beynəlxalq müsabiqələr laureatı, Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının badii rəhbəri *Zeynalabdin Babayev:* – Çox sevindirici haldır ki, biz, muğam qrupu olaraq dörd nəfər “Xarıbülbül” festivalında Naxçıvanımızı uğurla təmsil etdik. Qeyd etmək istəyirəm ki, tədbir çox yüksək səviyyədə təşkil olunmuşdu və xüsusən Naxçıvan qrupunun ifası tamaşaçılar tərəfindən və möhtərəm Prezidentimiz tərəfindən alqışlandı, qiymətləndirildi.

Bilirsiniz ki, sənət adamları, adətən, emosional insanlar olur. Şuşada olarkən üç fərqli duyğu hiss etdim. Birincisi, kövrəldim, ona görə ki, adının mənası alınmaz qala olan Şuşa bizim igid oğullarımızın canı, qanı bahasına alınıb. Burada naxçıvanlı igidlərimiz də qəhrəmancasına, son damla qanlarınadək döyüşərək şəhid olublar. İkincisi, qürur hissidir ki, xalqımız böyük tarixi Zəfər əldə edib. İllərdir, həsrətində olduğumuz torpaqlarımıza qayıtmışıq, qovuşmuşuq. Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti və eyni zamanda ordumuzun qəhrəmanlığı, rəşadəti sayəsində bu böyük Qələbəni əldə edə bildik. Üçüncüsü, sevinc hissidir. Prezidentimiz tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşamıza uzun illər sonra mədəniyyətimiz, musiqimiz qayıtdı. Dünyanın da gözü olan səhnədə “Naxçıvan” mahnısını səsləndirdik, qədim milli musiqi alətimiz olan tarda ifa etdim. Azərbaycanın görkəmli musiqiçiləri ilə bir səhnəni bölüşməyin özü də bir fəxrdir. Mən sovetlər zamanında Şuşada, Laçında, digər bölgələrimizdə qastrol səfərlərində olmuşam. Qarabağ da bizim gözəl və qədim diyarımız Naxçıvan qədər dünyanın ən gözəl guşəsidir, – deyərdim. Yaşayış binaları, tarixi abidələri yadelli işğalına məruz qalsa da, azad olunan torpaqlarımızda, eləcə də Şuşamızda bu gün sürətlə quruculuq işləri aparılır. Tezliklə hər bir şəhərimiz, kəndimiz yenilənəcək, bərpa ediləcək.

“Naxçıvan” mahnısı festivaldakı ifalar arasında seçildi, hamı tərəfindən bəyənildi. Bir sıra musiqi xadimləri, Xalq artisti, tanınmış xanəndə Alim Qasımov gözəl çıxış münasibətilə bizi təbrik etdi. Konsert qurtarandan sonra qrupumuz canlı çıxış etdi. Şuşa qalasının önündə XX əsrdə yaşamış azərbaycanlı xanəndə Xan Şuşinskinin yazdığı “Şuşanın dağları” mahnısını ifa etdik, maraqla qarşılandı. Onu da bildirim ki, festival çərçivəsində ölkəmizdə yaşayan talış, ləzgi, malakan, yəhudi və digər xalqların nümayəndələri ilə də həmsöhbət olduq. Onları Naxçıvanımıza dəvət etdik. Festival bizim üçün uğurları ilə yadda qaldı.

Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, Prezident mükafatçısı, Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının solisti *Zülfüqar Mahmudov:* – Qədim Şuşa şəhərimizə fərqli duyğularla gedirdik. Yolboyu işğaldan azad edilmiş torpaqlarımız – Cəbrayıl, Füzuli və Qubadlıdan, Xocavəndin kəndlərindən keçdik. Həmin yerlərdə bir salamat ev, bir salamat ocaq qalmayıb. Düşmənin torpaqlarımızı tərk edərkən kəsib yandırdığı ağaclar indi yenidən pöhrələyir, təbiət təzələnir. Avtomobilimiz Şuşa yoluna döndəndə bir çoxumuz göz yaşlarını saxlaya bilmədi. Qarabağ xanı Pənahəli xan tərəfindən əsası qoyulan Şuşa qalası, doğrudan da, möhtəşəm bir yerdə salınıb. Mövqeyinə görə alınmaz olan bu qala düşmən tərəfindən, ovaxtkı “sapı özümüzdən olan baltalar”ın köməyi ilə alınmışdı. Şükür olsun, bu günə ki, Şuşamız artıq öz sahibinə qaytarılıb. Maşından yerə enəndə kimisi əyilib yamyaşıl bitkiləri qoxulayır, kimisi tərtəmiz havanı ciyərlərinə çəkir, kimisi də dizini yerə qoyub, torpaqdan öpür, Uca Tanrıya şükür edirdi. Buz kimi havası, yamyaşıl meşələri, çölləri, suları bizi Şuşaya bir daha heyran etdi. Bir vaxtlar Qarabağ xanlarının və bəylərinin cıdır yarışlarını keçirdiyi, şuşalılar üçün müxtəlif bayram və mərasimlərin keçirilmə yeri olan Cıdır düzü bu dəfə dünyanın da diqqət mərkəzində olan “Xarıbülbül” musiqi festivalına ev sahibliyi etdi. Bəlkə də, bir çoxları üçün nisgil, kədər, ağrı, həsrət simvolu sayılan xarıbülbül bu dəfə sevincə, xoş anlara şahidlik etdi. Festivalda bütün xalqların nümayəndələrinin musiqiləri dinlənildi. Bu, bütün dünyaya bir mesaj oldu ki, doğrudan da, biz sülhsevər xalqıq, hər bir millətin nümayəndəsinə, onun mədəniyyətinə hörmət bəsləyirik. Biz naxçıvanlılar isə burada iştirakdan ikiqat qürur duyurduq. Bilirsiniz ki, Şuşanın alınmasında Naxçıvan xüsusi təyinatlılarının müstəsna rolu olub. Çox şəhidlər vermişik. Allah rəhmət eləsin hamısına. Onların qanları yerdə qalmadı. Cənab Prezidentimiz Şuşada keçirilən festivalı şəhidlərimizin əziz xatirəsinə həsr etdi. Şuşada “Naxçıvan” mahnısının səsləndirilməsi Naxçıvan şəhidlərinin də ruhuna verilən dəyərin ifadəsi idi. Səhnədə “Naxçıvan” mahnısını ifa edəndə bilmədim qaval çalım, oxuyum, ya kövrəlim. Qarabağın gözü Şuşada Naxçıvanımızı layiqincə təmsil edə bildik, çıxışımız alqışlarla qarşılandı. O yerlərə getməyi, milli musiqimizi təmsil etməyi Allah bizlərə bir daha nəsib etsin.

Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının solisti, nağara ifaçısı *Mahir Rüstəmov:* – Özümü çox xoşbəxt musiqiçilərdən hiss edirəm ki, mən də “Xarıbülbül” musiqi festivalının iştirakçısı oldum. Naxçıvan mədəniyyətini Cıdır düzündə layiqincə təmsil etdik. Festival mənim üçün sevinc və qəhər hissləri ilə yadda qaldı. Səhnədə duyğulandım. Fikirləşdim ki, orada canı, qanı bahasına torpaqlarımızı bizə qaytaran şəhidlərimizin ruhu yaşayır. Bütün şəhidlərimizə Allah rəhmət eləsin. Həyatımızı, xoş anlarımızı onlara borcluyuq.

Milli musiqimizin, muğamımızın ən yüksək ifadəsini tapdığı festival dostlarımıza sevinc, düşmənə isə gözdağı oldu. Bu festival onu göstərdi ki, Azərbaycanda musiqi mədəniyyəti, ifaçılığı yüksək səviyyədədir, ölkəmizdə milli birlik, bərabərlik, həmrəylik mövcuddur. Azərbaycan tolerantlıq, multikulturalizm məkanıdır. Şuşa Azərbaycanın ruhu, qürurudur. Bir daha bütün dünyaya göstərdik ki, Qarabağ Azərbaycandır! Qarabağ yalnız Azərbaycanla nəfəs ala, yaşaya bilər. 30 illik ayrılıqda düşmən doğma torpaqlarımızı nə hala salıb, insanlığa sığmayan vəhşiliklər törədib. Amma artıq bunlar keçib, Qarabağımızın yaralarını saracaq, ona məlhəm olacağıq. Burada keçirilən musiqi bayramı da qayıdışımızın bir nişanəsi idi. Cənab Prezidentin də vurğuladığı kimi, bu ildən başlayaraq hər il Şuşada “Xarıbülbül” musiqi festivalı keçiriləcək. Bu o deməkdir ki, Qarabağımız həm də milli musiqimizdən aldığı mənəvi qida ilə yaşayacaq, inkişaf edəcək.

Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının solisti, kamança ifaçısı *Nurlan Nuriyev:* – Mənim arzum idi Şuşanı görmək, ilk dəfə qismət oldu. Oranın çox gözəl havası, yaşıl meşələri vardır. Azərbaycanlılar qayıtdıqdan sonra, sanki canlanıb Şuşa. Əlçatmaz bir qaya üzərində ucalan bu şəhər bütün quruluşu ilə ona baxanları heyran edirdi. Orada olarkən Şuşa məscidindən azan səsini dinləyə bildik. Şuşa qalasını gördük. Sadəcə, qürur hissləri keçirdim. Bir daha üçrəngli bayrağımızı torpaqlarımızda dalğalandıran əsgərlərimizlə, hərbçilərimizlə fəxr etdik. Şəhidlərimizin ruhu şad olsun. Onların sayəsində bütün dünyaya qürur, fəxr hissləri ilə bir daha Qarabağın Azərbaycanın olduğunu göstərdik. Festivalda cənab Prezidentin qarşısında çıxış etmək çox böyük məsuliyyət idi. Biz bunun öhdəsindən layiqincə gəldik. Naxçıvana çox yüksək təəssüratlarla qayıtdıq.

*Beləliklə, milli birliyimizi, milli həmrəyliyimizi simvolizə edən “Xarıbülbül” musiqi festivalı hamımız üçün yaddaqalan oldu. İllər sonra Şuşamız, doğma Qarabağımız bayram etdi. Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi:* ***“Şuşanı yenidən görmək bizə nəsib oldu. Bu, böyük xoşbəxtlikdir. Əlbəttə, bir daha görürük ki, Şuşa əsl Azərbaycan şəhəridir. Çünki burada Azərbaycan ruhu hiss olunur. Memarlıq abidələri, bulaqlar, baxmayaraq ki, ermənilər o bulaqların naxışlarını dəyişmişdilər, yazıları da silmişdilər, amma yenə də burada hər tərəf, necə deyərlər, Azərbaycan mədəniyyəti ilə qaynayır. Biz əbədi qayıtmışıq, burada əbədi yaşayacağıq...”***

**Güntac ŞAHMƏMMƏDLİ**

## *“Tariximizi qoruyaq və yaşadaq!”* aksiyasında məktəblilər 200-dən çox eksponat toplayıblar



*Ümumtəhsil müəssisələrində “Tariximizi qoruyaq və yaşadaq!” devizi altında keçirilmiş aksiyada toplanan eksponatlar Mədəniyyət Nazirliyinə təqdim edilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Piri Nağıyev çıxış edərək qeyd edib ki, muxtar respublikada muzey fondlarının zənginləşdirilməsi daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzeylərin əməkdaşları və muxtar respublika vətəndaşları, xüsusilə ümumtəhsil məktəblərinin müəllim və şagird kollektivləri yaxından iştirak edirlər. Bu ilin may ayınadək muxtar respublika muzeylərinə 766 eksponat daxil olmuş, 2 eksponat təqdimatı keçirilmişdir. Növbəti təqdimat mərasimi sayca üçüncü olmaqla, əlamətdar bir gündə, Beynəlxalq Muzeylər Günündə keçirilir. İnanırıq ki, bu maddi mədəniyyət nümunələri də muxtar respublikanın muzeylərində sərgilənməklə diyarımızın sakinlərinin mədəni həyatı, etnoqrafik yaradıcılıq fəaliyyəti haqqında muzey ziyarətçilərində dərin təəssürat yaradacaq, həmçinin tədqiqatçı-alimlərin elmi-tədqiqat işlərinin faktlarla zənginləşdirilmə işinə mühüm töhfə olacaqdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının rəhbəri Rəşad Əlizadə bildirib ki, 2019-cu ildən ümumtəhsil məktəblərində “Tariximizi qoruyaq və yaşadaq!” devizi altında keçirilən aksiyanın əsas məqsədi müəllim və şagirdləri tariximizin öyrənilməsi və yaşadılması istiqamətində də fəal iştirakçıya çevirmək, onlara qədim maddi mədəniyyət nümunələrini toplayaraq muzeylərin zənginləşdirilməsi işinin vətəndaşlıq borcu olduğunu aşılamaqdır. Bu il də davam etdirilən aksiya çərçivəsində müəllim və şagirdlərimiz tərəfindən qədim maddi mədəniyyət nümunələri, o cümlədən şəxsi kolleksiyalarda toplanmış 200-dən çox toxuculuq məmulatları, məişət əşyaları, təsərrüfat alətləri, pul nümunələri və digər məmulatlar toplanaraq bir araya gətirilmişdir.

Naxçıvan Qarnizonu tam orta məktəbinin X sinif şagirdi Günel Hətəmli aksiyanın onlarla böyük maraq doğurduğunu və asudə vaxtlarında axtarışda olaraq eksponatların toplanmasında həvəslə iştirak etdiklərini diqqətə çatdırıb.

Tədbirdə aksiyada fəal iştirak edənlərə təşəkkürnamələr verilib, toplanmış eksponatlardan ibarət sərgiyə baxış olub. Qədim maddi mədəniyyət nümunələri, o cümlədən şəxsi kolleksiyalarda toplanmış tarixi və bədii əhəmiyyət daşıyan toxuculuq məmulatları, məişət əşyaları, təsərrüfat alətləri, pul nümunələri və digər tarixi əhəmiyyət daşıyan maddi mədəniyyət nümunələri Təhsil Nazirliyi tərəfindən Mədəniyyət Nazirliyinə hədiyyə edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

## Konfrans keçirilib



*“Naxçıvan” Universitetində “Əsas vəsaitlər, onlara çəkilən məsrəflərin kapitallaşdırılması problemləri və həlli yolları” mövzusunda elmi-praktik konfrans keçirilib.*

Konfransı giriş sözü ilə açan universitetin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, qloballaşan dünyada iqtisadiyyatın inkişaf etdirilməsi ölkələrin qarşısında dayanan əsas məsələlərdən biridir. Bunun üçün dövlət tərəfindən atılan addımlarla kifayətlənməməli, hər birimiz, ümumilikdə, iqtisadi inkişafa nail olmağa səy göstərməliyik. Qeyd edilib ki, bu gün auditoriyada əyləşən tələbələr sabah ixtisaslı kadr kimi çalışacaqları müəssisələrdə işlərini aldıqları təhsilə uyğun qururlar. Buna görə də bu cür konfransların keçirilməsi, gələcəyin mütəxəssislərinin hərtərəfli məlumatlandırılması baxımından vacibdir.

Universitetin müəllimlərindən Mehdi Bağırov, Elvin Əlimərdanov, tələbə Məşdi Ələkbərov müxtəlif mövzularda çıxış ediblər.

Sonda suallar cavablandırılıb.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

## Şahmat üzrə Azərbaycan çempionatına yekun vurulub



Naxçıvan Muxtar Respublikasında ilk dəfə təşkil olunan şahmat üzrə kişilər arasında Azərbaycan çempionatına yekun vurulub.

Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində keçirilən 12 şahmatçı dairəvi sistem üzrə mübarizə aparıb. Reqlamentə əsasən 2 mərhələdən ibarət olan çempionatda ilkin mərhələni 1-4-cü yerlərdə başa vuran zəka sahibləri 2-ci mərhələdə play-off sistemi üzrə yarımfinalda mübarizə aparıblar.

Çempionatın bağlanış mərasimində çıxış edən yarışın baş hakimi Lütfiyar Rüstəmov çempionatın təşkilatçılıq və yüksək peşəkarlıq səviyyəsində keçirilən yarış baxımından ölkənin şahmat tarixində yaddaqalan hadisə olduğunu bildirib.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov çıxışında vurğulayıb ki, ilk dəfə Bakıdan kənarda keçirilən ölkə birinciliyi yüksək səviyyədə təşkilatçılığı ilə seçilib. Məhz bu yarış yalnız dünyanın sayılıb-seçilən beynəlxalq turnirləri ilə müqayisə oluna bilər. Çempionat ərəfəsində istər şahmatçılar, istərsə də qonaqlar üçün hər bir şərait yaradılmışdı. Çıxışda Naxçıvanda belə turnirlərin daha çox keçirilməsi ilə bağlı arzu ifadə olunub.

Faiq Həsənov çempionatın gedişatından da bəhs edərək vurğulayıb ki, ilk 4 pillədə qərarlaşan şahmatçılar elə turnirin favoritləri idi. Bu çempionat fərqli sistemlə keçirildi. Çempionatdan öncə şahmatçılarla danışıqlar zamanı bəziləri bu sistemə uyğunlaşa bilməyəcəklərini deyirdilər. Lakin əsl qalib bu sistemlə müəyyən oldu. Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti çıxışının sonunda Naxçıvanda şahmata yüksək səviyyədə göstərilən dövlət qayğısına, yaradılan şəraitə, göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov şahmatçıları təbrik edərək vurğulayıb ki, şahmat tarixində ilk dəfə Naxçıvanda keçirilən ölkə birinciliyi yüksək təşkilatçılığı ilə seçilir. Diyarımız hər il müxtəlif mötəbər beynəlxalq turnirlərə, yarışlara ev sahibliyi edir. Lakin Azərbaycan çempionatının burada keçirilməsi tarixi hadisədir. Çünki bu yarışda Azərbaycanın ən güclü şahmatçıları mübarizə aparıblar. Bu yarış həm də yerli şahmatçılar üçün əlavə stimul oldu. Onlar təcrübəli, beynəlxalq qrossmeysterlərin oyunlarına baxmaqla həm də təcrübə toplamış oldular. Azad Cabbarov hər bir şahmatçını təbrik edib, onlara gələcək karyeralarında uğurlar arzulayıb.

Yarışa gəlincə, Azərbaycan çempionatının final görüşündə qrossmeyster Nicat Abasovla (2665) qrossmeyster Vasif Durarbəyli (2606) üz-üzə gəliblər. Rəqiblərin ilk gündə keçirilən görüşündə heç-heçə qeydə alınıb. İkinci gündə keçirilən görüşlər daha gərgin xarakter daşıyıb. Burada üstünlüyü ələ alan Vasif Durarbəyli sonda qalib gələrək Azərbaycan çempionu adına layiq görülüb.

Üçüncü yer uğrunda keçirilən qarşılaşmada qrossmeyster Eltac Səfərli (2598) və qrossmeyster Nicat Məmmədov (2609) məsələyə aydınlıq gətiriblər. "Sülh"ün qeydə alındığı ilk görüşdə ardınca daha istəkli oyun sərgiləyən Nicat növbəti gündə qalib gəlib və çempionatı üçüncü pillədə başa vurub.

Qeyd edək ki, qalib şahmatçımız Vasif Durarbəyli Azərbaycanı Dünya Kubokunda təmsil edəcək.

Sonda qalib şahmatçılar diplom və pul mükafatı ilə, Vasif Durarbəyli isə kubokla təltif edilib.

Tədbir başa çatdıqdan sonra Azərbaycan çempionatının qalibi, qrossmeyster Vasif Durarbəyli sevincini belə bölüşdü: "Azərbaycan çempionatında ən güclü şahmatçılarla mübarizə aparıb qalib olmaq qürurvericidir. İlk dəfə 14 yaşımda ölkə birinciliyində iştirak etmişəm və bir ilkə imza atmışam. Belə ki, həmin yarışdan sonra ölkənin Olimpiya millisinə üzv olmuşam. Sonuncu dəfə 15 il öncə ölkə çempionatında mükafat qazanmışam və uzun müddətdən sonra yenidən qalib oldum. Naxçıvanın mənim üçün düşərli olduğunu deyə bilərəm. Burada keçirdiyim zaman mənim üçün xoş oldu. Ümid edirəm şahmatın inkişafına böyük diqqət göstərilən Naxçıvanda belə səviyyədə turnirlər daha çox olacaq. Şahmatçılar üçün hər şey yüksək səviyyədə təşkil olunmuşdu. Bir daha təşkilatçılara minnətdarlığımı bildirirəm".



## Kross qaçışının qalibləri məlum olub

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilən kross qaçışı üzrə ali və orta ixtisas təhsili müəssisələrinin oğlan və qız atletləri arasında keçirilən Naxçıvan Muxtar Respublika birinciliyinə yekun vurulub.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atletika Federasiyasının birgə təşkil etdiyi turnir Duzdağ magistral yolunun 5 kilometr məsafəsində keçirilib. Beynəlxalq atletika qaydalarına uyğun olaraq təşkil edilən turnirə federasiyanın yığma komandasının 17 üzvü olmaqla, 100-dən çox atlet qatılıb.

Birinciliyin bağlanış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının sədri Rəhman Məmmədov muxtar respublikada bütün sahələrə, o cümlədən idmanın inkişafına göstərilən dövlət qayğısından, müvafiq idman sahələri üzrə yaradılan federasiyalardan danışıb. Bildirilib ki, Atletika Federasiyası da yeni tərkibdə fəaliyyətini davam etdirir. Federasiya əvvəlki fəaliyyətindən fərqli olaraq əhatə etdiyi idman növləri üzrə muxtar respublikada kütləviliyin təmin olunması istiqamətində müxtəlif tədbirlər – yarışlar, birinciliklər, maarifləndirici seminarlar təşkil edir. Bunun nəticəsində atletika idman növü üzrə bölmələrə cəlb edilən idmançıların sayı artıb. Hazırda muxtar diyarımızda federasiya idmançılarının sayı 1800-ə çatır ki, bu idmançılardan da 700-dən çoxunu qadın atletlər təşkil edir. Bu gün təşkil edilən 5 kilometr kross qaçışı üzrə açıq birinciliyin də məqsədi muxtar respublikada bu idman növü üzrə gənc idmançıların müəyyənləşdirilməsi və kütləviliyə nail olunmasıdır. Sonda federasiya sədri qalibləri təbrik edib, onlara uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, muxtar



respublikada idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yaradılan şərait gənclərin idmana olan marağını artırıb, istedadlı idmançıların yetişməsi təmin olunub. Bu gün Naxçıvanda 12 federasiya fəaliyyət göstərir ki, bunlardan biri də Atletika Federasiyasıdır. Federasiyada struktur dəyişikliyindən sonra xeyli irəliləyişin olduğunu görmək mümkündür. Nəticədə, muxtar respublikada bu növün kütləviliyinə nail olmaqla yanaşı, həm də idmançılar ölkədaxili və beynəlxalq turnirlərdə böyük uğurlara imza atırlar.

Qalib idmançıları təbrik edən Azad Cabbarov onlara təhsildə və idman karyeralarında uğurlar arzulayıb.

Birinciliyin yekun nəticəsinə əsasən oğlanlar arasında Əmrah Nağıyev finiş xəttinə hamıdan tez çatıb. Miryusif Seyidov ikinci, Rəhim Əliyev üçüncü olublar. Qızların mübarizəsində isə müvafiq olaraq Aysu Abbasova, Nursən Abbasova və Sevinc Əliyeva ilk 3 pillədə qərarlaşıblar.

Sonda qalib idmançılar, eyni zamanda birinciliyi ilk 10 pillədə başa vuran atletlər mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**



## Qalib ölkənin qalib şəhidləri...

Şəhid məzarları önündə dayanmışam... Ruhumdan ucalan səda artıq qulaqlarımı batırır... Müqəddəs torpağın müqəddəs daşlarını gəzirəm... Donuq baxışlarım, boğazımda düyünlənib qalan səsim və bir ananın oğlunun məzarı üstündəki cavabsız danışıqlarını izləyirəm. Ürək dözmürdü ananın bu söhbətinə. Göz yaşlarına hakim ola bilmirdim. Gördüyüm səhnənin tək təsəllisi oğlunu ömürlük itirmiş ananın mərd, hünər dolu baxışları ilə dayanması idi. Anaya yaxınlaşdım, ağ saçlarına tumar çəkdim, qəhrəman şəhidlərin qəhrəman anaları da elə sizin kimi olar, – dedim. Sizin oğlunuz, bizimsə qardaşlarımız olan şəhidlər ən uca zirvədə dayanıblar. Vətən, xalq sevgisi idi onlara cəsarət verən, daha möhkəm edən. Məhz bu cəsarətdən qüvvət alaraq "Hər şeydən öncə Vətəndir", – deyib irəli getdilər... Bu ölüm adi ölüm olsaydı, bir ana üçün çox çətin və əzablı olardı, bunu bilirəm. O ana ki min bir əziyyətlə böyütdüyü oğluna nə arzular bəsləmişdi, toyunu görməyi xəyal edirdi. Lakin şəhid anası adını daşıdığı üçün daha vüqarlı, daha əzmlidir.

Göynəyən sinəsində dağ vüqarı daşıyan ana göz yaşlarını gizlədərək dedi: – Övladımdan ayrı qalsam da, fəxarət hissi məni bürüyüb, bilirsinizmi niyə? Çünki oğlum torpaq üstündə şəhid olub. Onun adı ölümsüzlər adı ilə səslənir. Oğlum məni ən yüksək ad olan şəhid anası adına layiq görüb. Təki Vətən sağ olsun! İllərdir, qanayan yaralarımız sağalıb igid oğullarımız sayəsində. Mənim oğlum kimi, bütün şəhidlərimiz də bizlərin qürur mənbəyi, fəxrimiz, gələcək nəslimizin örnəkləridir.

Şəhid qardaşlarımın məzarlarını gəzərkən soruşdum ki, şəhidim, çoxmu gözəldir yerin, darıxırsanmı sevdiklərindən ötrü? Əlbəttə, darıxıram anam üçün, darıxıram, atam üçün, darıxıram balaca körpəmə sarılmaqdan ötrü. Tək darıxan biz deyilik axı... Düz 30 ildir, torpaqlarımız da darıxırdı anamız Vətəndən ötrü. Axı biz məlhəm olmalıydıq. Və olduq. Canımızdan keçərək əbədi-əzəli torpaqlarımızı sevdiklərinə qovuşdurduq. Yurd-yuvalarından didərgin düşmüş vətəndaşlarımızı doğma el-obalarına qaytardıq.

Şəhidlərim, bilirsinizmi sizləri qarşılamağa kimlər gəlmişdi? Naxçıvan sakinləri çıxmışdı yollara. Sizləri qarşılamağa gələnlərin hər birinin gözündə bir təlatüm, bir izdiham gördüm, göynəyən yaraların şahidi oldum. Elə doğma torpağınıza tapşırılan gün ruhunuz rahatlığına qovuşdu. Sizlər torpağa deyil, ürəklərə gömüldünüz, əzizlərim. Şəhid dərdi ürəklərdən su içir, – deyiblər. Bəli, insanın qəlbindən su içən heç bir zaman unudula bilməz. Sizlər can verdiniz ki, bizlər rahat yaşayaq, heç haqqınızı danmaq olarmı, şəhidim? Şəhidim, hər kəs bir ömrün sahibidir. İstər az, istər çox yaşa, yenə zaman gəlir yetişir, hər bir insanın dünyadan köçüb getmək məqamı çatır. Lakin sizlər kimi hünər və qeyrət zirvəsində dayanıb əbədiyyət zirvəsinə yüksəlmək hər kəsə nəsib olmur. Bu zirvəyə çatmaq, ancaq Vətən uğrunda canını fəda edənlərə nəsib olur. Qardaşlarım, sizlərin hünəri şərafət, ömrü isə Vətənin yeni adı olaraq yazıldı. Sizlər bizim qürur mənbəyimiz, böyüyən gəncliyimizin isə örnəyi oldunuz. Qarabağımızın azadlığını yazanlardan, qaranlıq sabahımızdan işıqlı sabahımıza nur gətirənlərdən oldunuz. Məzarlıqda başınızın üstündə dalğalanan üçrəngli bayrağımızın qırmızısında bütün şəhidlərimiz kimi, sizlərin də qanınızın rəngi var.

Daha sizlərə nələrdən danışım, şəhidlərim? Sizlərin canı bahasına geri aldığımız Şuşa torpağında bu il daha fərqli açıb xarı bülbül. Düşmən əsarətindən qurtulan xarı bülbülüm sizlərin igidliyindən, qəhrəmanlığından doyunca danışır. Uca dağları, daşları keçərək böyük çətinliklərlə də olsa, onu azad etməyinizdən danışır. Sizdən, qoyub getdiyiniz tarixi qələbədən hələ çox danışılacaq. Ali Baş Komandanın öz əlləri ilə məzarlarınıza düzdüyü tər çiçəklər isə doğmalarınızı ovudacaq ən böyük təsəlli kimi qəlblərdə heç zaman solmayacaq!

"Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı ilə məzarlıqdan ayrıldım. Evə döndükdə elə bildim ucadan səslənsəm, səsim hər yana çatacaq, şəhid anaları eşidəcək, Qarabağ da duyacaq həmin hayqırtımı. Əziz qardaşlarımız, sizlər qəlbimizdə əbədi yer saldınız. Haqq bayrağını qaldıranlardan, düşmənin qara bağrını öz şücaəti və hünərləri ilə məhv edənlərdən oldunuz. Nə qədər zaman keçir-keçsin, gələcək nəsillər qəhrəmanlıq tarixini yazmış oğullarımızı minnətdarlıqla yad edəcəklər. Qəhrəmanlıqla vuruşan, xalqımızın azadlığını hər şeydən uca tutan, bu yolda həyatını qurban verərək ən uca zirvəyə – şəhidlik məqamına ucalanların xatirəsini anmağa borcluyuq.

Rəsul Rza nə gözəl deyib:

*"Mübariz bu gün də var, yarın da.*
*Mən də onun ən ön sıralarında*
*Şəhadət ən böyük eşq, şəhid ən böyük aşiqdir".*

**Nuray ƏSGƏROVA**

### İtmişdir

Şərur rayon Qarabürc kənd sakini Cəfərli Afət Rza oğlunun adına verilmiş JN-57A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 407